# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNDƏ İMTAHAN SESSİYASININ TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ ÜZRƏ **QAYDALAR**

## 1. İMTAHANA BURAXILMA

1.1. İmtahanda ancaq fakültə dekanlığı tərəfindən hazırlanmış siyahıda adları olan tələbələr iştirak edə bilərlər.

1.2. İmtahanın başlandığı elan olunduqdan sonra gələn tələbələrə əlavə vaxt verilmir.

1.3. Tələbələr imtahan cədvəlində göstərilən gün və saatlarda imtahanlara girməli və tələbə biletlərini özləri ilə gətirməlidirlər.

1.4. Üzərində tələbə bileti olmayan tələbələr imtahana buraxılmırlar. Tələbələr imtahana yalnız tələbə biletləri yoxlandıqdan sonra buraxılırlar.

1.5. Tələbə biletinin olmaması səbəbindən imtahanda iştirak etməyən tələbələr üçün təkrar imtahan keçirilmir.

1.6. Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə keçirilən proqramlara tam yiyələnmədiyi üçün mövcud qaydalara uyğun olaraq, həmin fəndən imtahana buraxılmır.

1.7. Müəyyən olunmuş tarixdə imtahanda iştirak etməyən tələbə həmin tarixdən 3 gün müddətində bunun üzrlü səbəbi haqqında dekanlığa məlumat verməlidirlər. Əks halda həmin tələbə təkrarən imtahana buraxılmır.

1.8. Bu qaydaya riayət etməyən və təhsil haqqını ödəməyən tələbələr imtahanlara buraxılmırlar.

## 2.İMTAHANLARIN TƏŞKİLİ

2.1. Azərbaycan Dövlət Pedaqoji Universitetində payız və yaz imtahan sessiyaları, o cümlədən yay semestrinin imtahanları tədris qrafikinə - akademik təqvimə uyğun olaraq, ADPU rektorunun əmri ilə müəyyən olunan müddətdə keçirilir.

2.2. Azərbaycan Dövlət Pedaqoji Universitetində istənilən ixtisas üzrə daxil olan tələbə tədris prosesini müvəffəqiyyətlə başa vurub diplom əldə etmək istəyirsə, müəyyən edilmiş fənlər üzrə kreditin qazanılmasını təsdiq edən imtahanları verməlidir.

**2.3. Bütün imtahan və yoxlamalar Tədrisin idarə olunması və tədris texnologiyaları mərkəzinin "İmtahan, monitorinq və qiymətləndirmə" şöbəsi tərəfindən müəyyən edilən vaxt və rektorluq tərəfindən təsdiqlənən cədvəl əsasında aparılır.**

2.4. İmtahanlar, əsasən, VTS-Test sistemi və yazılı formada aparılır. Ancaq sağlamlıq imkanları məhdud və ya həmin müddətdə yazmaq imkanı olmayan tələbələrin imtahanları onların səhhəti nəzərə alınaraq "İmtahan, monitorinq və qiymətləndirmə" şöbəsinin müəyyən etdiyi formada aparılır.

Sessiya müddətində tələbələrin fənn üzrə imtahan nəticəsindən narazılıqları mövcud qaydada araşdırılması və həll edilməsi məqsədilə **ADPU-da apelyasiya komissiyası yaradılmışdır.**
**Apelyasiya komissiyası ADPU-nun birinci tədris binasında, 204-cü otaqda fəaliyyət göstərir**

2.5. Tələbə imtahanın nəticələrindən narazı qaldıqda nəticələr elan olunduğu gün ADPU apelyasiya komissiyasına ərizə ilə müraciət edərək etirazını bildirə bilər.

2.6. ADPU-da imtahanların obyektiv və şəffaf təşkili və keçirilməsi,imtahan prosesində yarana biləcək narazılıqların mövcud qaydada araşdırılması və həll edilməsi məqsədilə imtahan qərargahı yaradılmışdır.
**İmtahan qərargahı ADPU-nun birinci tədris binasında,**
**247-ci otaqda fəaliyyət göstərir.**
**İmtahan qərargahının əlaqə telefonu:**
**(012) 498-17-94**

## 3. İMTAHANLARIN KEÇİRİLMƏSİ

3.1. İmtahan zamanı nizam-intizam qaydalarına ciddi əməl edilməlidir.

3.2. İmtahanlar əsas etibarilə ADPU əsas tədris binasında keçirilir.

3.3. İmtahanlar saat $09^{00}$-da, $12^{00}$-da və $15^{00}$-da başlanır. İmtahanın vaxtında başlanılması üçün tələbələrin $08^{30}$-da, $11^{30}$-da və $14^{30}$- imtahan zalının qaşısında hazır olmaları tələb olunur.

3.4. İmtahanlar 3 akademik saat davam edir.

3.5. Kənar şəxslərin imtahanlarda və yoxlama prosesində iştirakı yalnız rektorun icazəsi ilə həyata keçirilə bilər.

**3.6. İmtahan zamanı davranış qaydalarına əməl etməyən tələbələr imtahandan kənarlaşdırılaraq protokollaşdırılır və onların imtahan cavabları ləğv edilir.**

**3.7. İmtahan zamanı danışmaq, bir-birindən nə isə soruşmaq, başqasının cavablarına baxmaq, köçürmək, köçürməyə şərait yaratmaq, imtahan biletini dəyişmək, köməkçi vasitələrdən (telefon, kitab, konspekt və s.) istifadə etmək qəti qadağandır.**

**3.8. İmtahan müddətində köçürən, köçürmək istəyən, köçürməyə şərait yaradanlar, öz aralarında danışanlar imtahan otağının rəhbəri tərəfindən imtahan otağından çıxarılır və lazımi cəza verilməsi üçün protokol tərtib edərək "İmtahan, monitorinq və qiymətləndirmə" şöbəsininə təhvil verilir.**

**3.9. İmtahanda köçürən və ya köçürdüyü müəyyən edilən tələbə o imtahandan "0" (sıfır) qiymət almış hesab olunur. Belə tələbələrə fakültə dekanlığı tərəfindən uyğun cəza verilir.**

**3.10. Köçürdənn və yaxud köçürməyə imkan yaradan tələbələr haqqında eyni qaydalar tətbiq olunur.**

**3.11. İmtahan sualları, biletlər və cavab blankları imtahan otağından kənara çıxarıla bilməz.**

**3.12. İmtahan müddətində stolların üstündə, altında imtahanla əlaqədar heç bir vəsait olmamalıdır.**

**3.13. İmtahan, monitorinq və qiymətləndirmə şöbəsinin müvafiq icazəsi olmadığı təqdirdə imtahanda lüğət, kalkulyator və s. bunlara oxşar köməkçi vəsaitlərdən istifadə edilməsi qadağandır.**

3.14. İmtahan vərəqi ancaq bənövşəyi rəngdə yazan, diyircəkli qələmlə doldurulmalıdır.

3.15. Hər hansı bir imtahan biletinin və ya biletin sualının tərtibatında səhv aşkar edilərsə, bununla əlaqədar apelyasiya komissiyasına və imtahan qərargahına ərizə ilə müraciət edilməlidir.

## 4. TƏLƏBƏLƏRİN İMTAHANIN GEDİŞİNDƏ AŞAĞIDAKI HƏRƏKƏTLƏRƏ YOL VERMƏSİ QADAĞANDIR

**4.1.** **İmtahan keçirilən otağa mobil telefonla daxil olmaq.**

**4.2.** **İmtahan başlandıqdan sonra tələbənin üzərində mobil telefon və ya digər köməkçi vasitələr aşkar olunarsa, bu qaydanın pozulması halı kimi qiymətləndirilərək, protokollaşdırılacaq və tələbə imtahandan kənarlaşdırılacaq.**

**4.3.** **Konspekt, mobil telefon, kitab və digər vəsaitlərdən köçürmək, o cümlədən hər hansı bir vasitədən istifadə edərək köçürməyə cəhd etmək.**

**4.4.** **İmtahan başlandıqdan sonra mobil telefon və digər texniki vasitələrdən istifadə etmək.**

**4.5.** **İmtahanda danışmaq və digər hərəkətləri ilə başqalarına mane olmaq.**

**4.6.** **İmtahan biletlərini və cavab vərəqələrini təhvil vermədən imtahan otağından çıxmaq.**

**4.7.** **İmtahan müddətində öz aralarında, həmçinin koordinatorlarla danışmaları.**

**4.8.** **İmtahan müddətində bir-birindən qələm, pozan və bu kimi başqa vəsait almaları.**

**4.9.** **İmtahan başlandıqdan sonra ilk 30 dəqiqə ərzində otağı tərk etmək.**

**4.10.** **İmtahan vərəqini qatlamaq, əzmək, cırmaq, bükmək, üzərində hər hansı fərqləndirici nişanələr etmək. İmtahan vərəqində ad, soyad, hər hansı xüsusi qeyd, fərqləndirici əlavə işarə aşkar olunarsa, imtahan cavabı ləgv olunacaq.**

**4.11.** **İmtahan zamanı koordinatora imtahan suallarının və onların məzmunuı ilə əlaqədar sual vermək qadağandır.**

**4.12.** **Yuxarıda göstərilən normalara tələbə tərəfindən əməl olunmadıqda koordinator imtahan biletləri və cavab blanklarını alır və protokol tərtib edərək tələbəni imtahan otağından çıxarır.**

## 5. İMTAHAN KOORDİNATORLARININ VƏZİFƏLƏRİ

5.1. Tələbələrin və digər şəxslərin imtahan prosesinin normal gedişinə mane olan hərəkət və davranışlarının qarşısını almaq.

5.2. Tələbələrə mane ola biləcək, onların fikrini yayındıracaq davranış və hərəkətlərə yol verməmək.

5.3. Tələbələrlə, eləcə də bir-biriləri ilə münasibətlərində etik davranış qaydalarına riayət etmək.

5.4. İmtahan üçün ayrılmış vaxt başa çatdıqdan sonra koordinatorlar tərəfindən cavab vərəqələri yığılır və “İmtahan, monitorinq və qiymətləndirmə” şöbəsinə təhvil verilir.

## 6. İMTAHAN KOORDİNATORLARININ HÜQUQLARI

6.1. Konspekt, kitab, mobil telefon və digər vəsaitlərdən köçürmə hallarına yol verən tələbələri imtahan zalından kənarlaşdırmaq.

6.2. Tələbələr və digər şəxslərdən imtahan prosesinin normal gedişinə mane olan hərəkət və davranışlara yol verməmələrini tələb etmək.

6.3. Koordinatorlar imtahan zamanı köçürənlərə və yaxud köçürmək istəyənlərə xəbərdarlıq etmədən onları imtahan otağından çıxara bilərlər. Həmin tələbənin imtahan nəticəsi ləğv edilir.

6.4. Koordinator lazım olduqda tələbənin oturduğu yeri dəyişdirə bilər.

**Əsas:Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1059 nömrəli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında Əsasnamə" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə".**